"Biz bu qədim sənəti yaşadırıq. İndi biz haqlı olaraq hesab edirik ki, xalçaçılıq sənətinin vətəni Azərbaycandır. Bunu deməyə kifayət qədər əsaslar var. Digər tərəfdən bu, ənənəvi sənət növüdür. Nadir xalçalarımız var. Ona görə də bunu yaşatmalıyıq. Gənc nəsil də bu işlərə çox maraq göstərir. Bir daha qeyd etmək istəyirəm ki, həm dünyada Azərbaycanı geniş şəkildə təbliğ edəcəyik, həm də bu, böyük ixrac məhsuludur".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




**Xalq tətbiqi sənətinin qolu olan xalçaçılığın xalqımızın milli mədəniyyət tarixində özünəməxsus yeri var. Xalçaçılıq Azərbaycan xalqının məişətində və milli dəyərlər sistemində ön sıralarda dayanır. Xalçalarımızda tariximiz, milli dəyərlərimiz yaşadılır. Milli-mənəvi sərvətlərimizin qorunmasına, el sənətlərinin yaşanmasına diqqət göstərən Prezident İlham Əliyevin son illərdə qeyri-neft sektoru kimi gəlirli sahə olan xalçaçılığın inkişafına göstərdiyi səylər öz bəhrəsini verir.**

# İlmə-ilmə ərsəyə gələn mənəvi sərvətimiz

## Azərbaycan xalçaları təkrarolunmaz gözəlliyi və yüksək keyfiyyəti ilə diqqəti cəlb edir

2010-cu ildə Azərbaycan xalça sənəti Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi ilə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi-mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilmişdir.

Azərbaycan Xalça Muzeyi keçmiş sovet ölkələri arasında ilk dəfə ölkəmizdə 13 mart 1967-ci ildə yaradılıb və dünyada ilk muzey kimi tarixə düşüb. Yarandığı dövrdə dünyanın yeganə ixtisaslaşdırılmış xalça muzeyi idi. Azərbaycan xalçasının milli bədii irsin ən önəmli tərkib hissələrindən biri kimi qorunub saxlanılması, əsaslı və hərtərəfli öyrənilərək geniş ictimaiyyətə təqdim edilməsi muzeyin yaradılmasının başlıca məramı olmuşdur. Muzeyin yaranmasının təşəbbüskarı görkəmli alim və xalçaçı, xalça haqqında elmin banisi, rəssam və pedaqoq, "Azərbaycan xalçası" adlı fundamental əsərin müəllifi Lətif Kərimov olmuşdur. Muzeyin ilk ekspozisiyası 26 aprel 1972-ci ildə İçərişəhərdə yerləşən, XIX əsr memarlıq abidəsi olan Cümə məscidinin binasında açılmışdır. Ekspozisiyanın açılış mərasimində muzey yarandığı gündən böyük dəstəyini əsirgəməyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev iştirak etmişdir. 1970-1980-ci illərdə ümummilli lider Heydər Əliyevin davamlı dəstəyi sayəsində muzey sənətkarlıq nümunələrini almaq və bununla da öz kolleksiyasını genişləndirmək imkanı əldə etdi. Həmin illərdə muzey üçün Azərbaycan xalça sənətinin inciləri alındı.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Mədəniyyət və Turizm Nazirliyi, Heydər Əliyev Fondu və UNESCO-nun birgə layihəsi çərçivəsində Dənizkənarı Milli Parkda Azərbaycan Xalça Muzeyi üçün yeni binanın tikilməsi barədə sərəncam imzaladı. 2014-cü ildə avstriyalı memar Frans Yantsın layihəsi əsasında muzey işinin ən müasir tələblərinə cavab verən yeni bina inşa edildi. Nazirlər Kabinetinin 15 iyul 2019-cu il tarixli qərarı ilə ölkəmizin xalça sənətinin qorunması və təbliği sahəsindəki müstəsna xidmətlərinə görə Azərbaycan Xalça Muzeyinə "Milli" statusu verilmişdir.

Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir. Azərbaycan dövlətinin siyasətində xalçaçılığa münasibət də xüsusi yer tutub və o tarixən böyük inkişaf yolu keçib. Ölkə Prezidenti cənab İlham Əliyev 7 dekabr 2004-cü il tarixində "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq etmişdir. Ölkə başçısı bu qanunun təsdiqindən az sonra, 2005-ci il fevralın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə fərman imzalamışdır. Bu sənədlər Azərbaycanda xalçaçılığın inkişaf tarixində yeni səhifələr açmaqla, onun daha da intensiv inkişafına misilsiz töhfə vermişdir.



Xalçaçılıq sənəti xalqımızın milli və qədim sənətidir. Bu gün Azərbaycan xalçaları dünyanın ən aparıcı muzeylərində nümayiş etdirilir. Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub, milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, böyük diqqətə səbəb olub. Azərbaycan xalçalarının ta qədimlərdən başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ildə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması da bunun nümunəsidir. ASC-nin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir.

Həmçinin Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" xalçaçılığa göstərilən yüksək diqqət və qayğının göstəricisidir. Dövlət Proqramında xalçalarımızın ölkə brendi olaraq dünya bazarına ixrac olunması qarşıya qoyulan əsas vəzifələrdəndir.

Prezident İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli Sərəncamına əsasən altıncı ildir ki, mayın 5-i "Xalçaçı Günü" kimi qeyd edilir. Bu, xalçaçı əməyinə dövlətimiz tərəfindən verilən yüksək dəyərdir.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**